*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 266-270*

https://doi.org/10.62837/2025.8.266

**Fil.ü.f.d. AYNUR MƏZAHIR QIZI HƏSƏNOVA**
**Azərbaycan Universiteti, Bakı, Azərbaycan**
**E-mail: aynur.hasanova@au.edu.az**

# YAZIÇILAR BİRLİYİ VƏ DİL SİYASƏTİ

**Xülasə**: XX əsrdə Azərbaycan Yazıçılar Birliyinin fəaliyyətində ana dili məsələsinin rolu xüsusidir. Sovet dövründə ruslaşdırma siyasətinə baxmayaraq, Yazıçılar Birliyi Azərbaycan dilinin qorunması, işlənməsi və ədəbi müzakirələrdə aparıcı dilə çevrilməsi üçün mühüm platforma olmuşdur. Müstəqillik illərində isə dövlət dilinin hüquqi statusunun möhkəmləndirilməsi istiqamətində aparılan müzakirə və təşəbbüslərdə Birliyin fəal iştirakı xüsusi diqqət çəkir. Yazıçılar Birliyi həm sovet ideoloji çərçivəsində dilin rəsmi mövqeyini qorumuş, həm də müstəqillik dövründə dövlət dilinin hüquqi statusunun təmin edilməsinə real təsir göstərmişdir. Bu baxımdan Yazıçılar Birliyinin fəaliyyəti milli dilin tarixi inkişafında həm mədəni, həm də siyasi proseslərin kəsişdiyi bir platforma kimi mühüm əhəmiyyət kəsb edir.

**Açar sözlər:** Azərbaycan dili, Yazıçılar Birliyi, dil siyasəti, sovet dövrü, dövlət dili, ədəbi müzakirələr

**AYNUR HASANOVA**

# WRITERS' UNION AND LANGUAGE POLICY

**ABSTRACT:**

In the 20th century, the issue of the mother tongue held a special place in the activities of the Writers’ Union of Azerbaijan. Despite the policy of Russification during the Soviet era, the Union served as an important platform for preserving, developing, and promoting the Azerbaijani language as the leading medium of literary discussions. During the years of independence, the Union’s active participation in discussions and initiatives aimed at strengthening the legal status of the state language is particularly noteworthy. The Writers’ Union not only preserved the official position of the language within the framework of Soviet ideology but also had a tangible impact on ensuring the legal status of the state language in the post-independence period. In this respect, the Union’s activity is of great significance as a platform where cultural and political processes intersect in the historical development of the national language.

**Keywords:** Azerbaijani language, Writers’ Union, language policy, Soviet period, state language, literary discussions.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 266-270*

## СОЮЗ ПИСАТЕЛЕЙ И ЯЗЫКОВАЯ ПОЛИТИКА

**Резюме:** В XX веке вопрос родного языка занимал особое место в деятельности Союза писателей Азербайджана. Несмотря на политику русификации в советский период, Союз писателей стал важной платформой для сохранения, развития и укрепления позиций азербайджанского языка в литературных дискуссиях. В годы независимости активное участие Союза в обсуждениях и инициативах, направленных на укрепление правового статуса государственного языка, заслуживает особого внимания. Союз писателей не только сохранял официальный статус языка в рамках советской идеологии, но и оказал реальное влияние на обеспечение правового статуса государственного языка в постсоветский период. Таким образом, деятельность Союза писателей имеет важное значение как пересечение культурных и политических процессов в историческом развитии национального языка.

**Ключевые слова:** азербайджанский язык, Союз писателей, языковая политика, советский период, государственный язык, литературные дискуссии.

**Giriş**. Dil bir xalqın milli kimliyini, tarixi yaddaşını və mənəvi dəyərlərini qoruyub gələcək nəsillərə ötürən ən mühüm vasitədir. Tarixi proseslər göstərir ki, dil məsələsi təkcə mədəni və ədəbi məsələ deyil, həm də siyasi, ideoloji və milli özünüdərkin mərkəzi problemidir. XX əsrdə Azərbaycan cəmiyyətinin ictimai-siyasi həyatında baş verən köklü dəyişikliklər sovetləşmə, ruslaşdırma siyasəti, ideoloji nəzarət və daha sonra müstəqilliyin bərpası Azərbaycan dilinin ictimai statusuna birbaşa təsir göstərmişdir.

Mürəkkəb bir tarixi şəraitdə Azərbaycan Yazıçılar Birliyi ana dilinin qorunması, işlənməsi və inkişafı üçün həm formal, həm də mənəvi tribuna funksiyasını öz üzərinə götürmüşdür. Birlikdə aparılan ədəbi və ideoloji müzakirələr, keçirilən müşavirələr, yazıçıların ictimai çıxışları dilin həm bədii-estetik, həm də siyasi-hüquqi səviyyədə mövqeyinin qorunmasına xidmət etmişdir. Sovet dövründə ölkənin digər idarə və müəssisələrində rus dili üstünlük təşkil etdiyi halda, Yazıçılar Birliyi ana dilində rəsmi çıxış və tədbirlərin keçirildiyi nadir məkan idi.

Müstəqillik illərində isə Yazıçılar Birliyi Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit edilməsi istiqamətində aparılan ictimai-siyasi müzakirələrdə mühüm intellektual tribuna rolunu oynayaraq dilin hüquqi statusunun möhkəmləndirilməsi prosesinə aktiv töhfə vermişdir. Beləliklə, XX əsr boyunca Yazıçılar Birliyi dilin ictimai mövqeyinin qorunması və inkişafında həm mədəni, həm ideoloji, həm də siyasi səviyyədə vacib funksiyalar icra etmişdir (6).

**Sovet dövründə Yazıçılar Birliyinin dil siyasətində rolu.** XX əsrin 20–80-ci illəri Azərbaycan dilinin ictimai mövqeyi üçün ziddiyyətli və mürəkkəb bir mərhələ olmuşdur. Sovet ideologiyası rus dilini ittifaq məkanında əsas ünsiyyət və idarəetmə dili kimi təqdim edir, milli dillərin rolunu isə sistemli şəkildə məhdudlaşdırırdı.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 266-270*

Azərbaycan da bu siyasətdən kənarda qalmamış, rəsmi idarəetmə, təhsil və mətbuat sahələrində rus dili üstün mövqeyə çıxarılmışdı. *Mirzə Bala Məmmədzadəbolşeviklərin məkrli niyyətlərini açıqlayaraq qeyd edirdi ki:"sovet ideoloqları ruslaşdırma nəticəsində yarı rusca, yarı türkcə internasional dil yaratmaq istəyirlər"*(1. 56).Belə bir şəraitdə Azərbaycan Yazıçılar Birliyidilin qorunması üçün həm rəsmi, həm də mədəni bir sığınacaq rolunu oynadı.

Sosialist rejiminin ən sərt illərində belə, kargüzarlığın Azərbaycan dilində aparılması yalnız Yazıçılar İttifaqında mümkün idi. Keçən əsrin 40–50-ci illərində Bakı şəhərində heç bir idarə və müəssisədə rəsmi tədbirlər Azərbaycan dilində keçirilmir, rus dilinin hegemonluğu şəraitində məmurlar belə Yazıçılar İttifaqının iclas və müşavirələrində çıxış etmək üçün məcburən Azərbaycan dilinə müraciət edirdilər. Bu fakt təkcə dilin işlənmə praktikasına deyil, onun simvolik nüfuzuna və ideoloji müqavimət gücünə də dəlalət edir.M.İbrahimov 1959-cu ildə qələmə aldığı "Dostluğun gücü" məqaləsində yazırdı: *"Yəqin ki, bir çox insan bu dövrdə dilimizin hökumətdə istifadəsini artırmaq uğrunda apardığım əzab və əziyyətləri bilir"*(2. 9).

Sovet dövründə ana dilinin rəsmi səviyyədə qorunması istiqamətində mühüm dönüş nöqtələrindən biri 1978-ci ildə Azərbaycan dilinin dövlət dili statusu alması olmuşdur. Həmin dövrdə respublikanın siyasi rəhbəri və Konstitusiya Komissiyasının sədri olan Heydər Əliyev bu prosesdə yazıçı və şairlərin mənəvi və ictimai dəstəyinə arxalanırdı. Məhz Yazıçılar Birliyində aparılan ideoloji müzakirələr və ədəbi ictimaiyyətin fəal mövqeyi nəticəsində, ruslaşdırma siyasətinin güclü olduğu bir zamanda Azərbaycan dili dövlət dili statusuna yüksəldi. Bu hadisə sovet imperiyası daxilində milli dillərin müdafiəsində nadir nümunələrdən biri kimi dəyərləndirilə bilər.

Bununla yanaşı, Yazıçılar Birliyi dilin yalnız siyasi-hüquqi deyil, həm də bədii və estetik səviyyədə inkişafı üçün mühüm meydan idi. Birlikdə keçirilən ədəbi müzakirələrdə dilin saflığı, bədii üslubun zənginləşdirilməsi, xalq dilinin ədəbiyyata gətirilməsi, klassik irsin yenidən oxunması kimi məsələlər diqqət mərkəzində idi. Beləliklə, sovet ideoloji sisteminin milli dillərə təzyiqinə baxmayaraq, Yazıçılar Birliyi ana dilinin həm rəsmi, həm də ədəbi mövqeyinin qorunmasında mərkəzi institut funksiyasını yerinə yetirdi. Müstəqillik dövründə dil məsələsinin gündəmə gətirilməsi və müzakirələr. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə dil məsələsi milli kimliyin bərpası və hüquqi-inzibati sistemin yenidən qurulması prosesində strateji əhəmiyyət qazandı. Sovet dövründə uzun illər rus dilinin üstün mövqedə olması nəticəsində Azərbaycan dilinin rəsmi dairələrdə istifadəsi məhdud idi. Müstəqillik dövründə isə dilin yalnız ədəbi və mədəni sahələrdə deyil, həm də dövlət idarəçiliyi və hüquqi müstəvidə əsas yer tutması tələb olunurdu.

Bu dövrdə Azərbaycan Yazıçılar Birliyi ana dilinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində cəmiyyətin aparıcı fikir mərkəzlərindən birinə

çevrildi. 1995-ci ildə qəbul edilən yeni Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması ərəfəsində keçirilən ictimai müzakirələrdə yazıçıların rolu xüsusi əhəmiyyət kəsb edirdi. Dissertasiyada göstərildiyi kimi, 31 oktyabr 1995-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində keçirilən iclasda Prezident Heydər Əliyev Yazıçılar Birliyinin üzvlərini dövlət dilinin Konstitusiyada necə əks olunmalı olduğu məsələsində öz fikirlərini açıq şəkildə bildirməyə dəvət etmişdi. İclasda 500-dən çox yazıçı və ziyalı iştirak etmiş, bu müzakirələrdə dil məsələsi milli dövlətçiliyin əsas dayaqlarından biri kimi təqdim olunmuşdur. H.Əliyevin *"Mən dedim ki, Yazıçılar Birliyi üzvlərinin hamısını çağırın. Dünən axşam dedilər ki, orada 500 nəfər adam var. ... Qoy onlar nə deyirlərsə, gəlib burada desinlər. Hər deyilən sözdən bir məna çıxır" (3. 26).* sözləri bu dialoqun tam demokratik mühitdə aparıldığını təsdiqləyir. Bu tarixi iclas və onun ətrafında gedən müzakirələr Azərbaycan dilinin hüquqi statusunun Konstitusiyada təsbitinə ideoloji və ictimai zəmin yaratdı. Bu prosesdə Yazıçılar Birliyi təkcə bir yaradıcı təşkilat deyil, həm də milli dil siyasətinin formalaşmasında intellektual tribunal rolunu oynadı. Yazıçı və ədiblərin ictimai nüfuzu, onların çıxış və təklifləri dövlət dilinin hüquqi statusunun müəyyənləşdirilməsində geniş rezonans doğurdu. Ədəbi ictimaiyyət bu məsələyə təkcə dilin qorunması kontekstində deyil, həm də milli dövlətçilik və suverenliyin ideoloji dayağı kimi yanaşırdı.

1995-ci il Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili "Azərbaycan Respublikasının dövlət dili" kimi təsbit olundu və dövlətin onun "bütün sahələrdə inkişafını təmin edəcəyi" xüsusi olaraq qeyd edildi (7). Bu maddə milli dilin hüquqi qorunmasının və istifadəsinin əsas normativ çərçivəsini formalaşdırdı. Həmin dövrdə aparılan müzakirələrdə Yazıçılar Birliyi üzvlərinin aktiv iştirakı, dilin yalnız ədəbi-mədəni deyil, həm də siyasi və hüquqi məna daşıyan fenomen kimi təqdim edilməsinə şərait yaratdı. Bununla da Yazıçılar Birliyi dil məsələsinin sadəcə bədii problem olmaqdan çıxaraq Konstitusion hüquqi sistemin tərkib hissəsinə çevrilməsində mühüm tarixi rol oynadı.

Müstəqillik dövründə Yazıçılar Birliyinin fəaliyyəti yalnız hüquqi müstəvidə deyil, eyni zamanda mədəni-siyasi səviyyədə də dilin mövqeyini gücləndirdi. 2019-cu ildə AYB-nin 85 illik yubileyində Birliyin sədri Anar da vurğulamışdı ki, sovet sonrası dövrdə bir çox ölkələrdə yazıçılar birlikləri dağılarkən, Azərbaycanda Birlik dilin, ədəbiyyatın və milli mənəviyyatın qoruyucusu kimi fəaliyyətini davam etdirmişdir

**Nəticə**. XX əsrdə Azərbaycan Yazıçılar Birliyi yalnız bir ədəbi təşkilat kimi deyil, həm də milli dil siyasətinin formalaşmasında və qorunmasında strateji rol oynayan ictimai institut kimi çıxış etmişdir. Sovet dövründə ruslaşdırma siyasətinə baxmayaraq, Birlik Azərbaycan dilinin işlənməsi və ictimai rəsmi tədbirlərdə istifadəsi üçün mühüm platforma rolunu oynamış, dilin bədii-estetik inkişafına yönəlik müzakirələr aparılmışdır.1978-ci ildə Azərbaycan dilinə dövlət dili

statusunun verilməsi həm siyasi rəhbərliyin, həm də yazıçı və şairlərin birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Bu hadisə sovet sistemində milli dilin qorunması baxımından unikal bir nümunə idi.

Müstəqillik illərində isə Yazıçılar Birliyi dil məsələsinin Konstitusiyada dövlət dili kimi təsbit olunmasında fəal iştirak etmiş, geniş ictimai müzakirələrin təşkilində mühüm rol oynamışdır. 1995-ci il konstitusiya müzakirələrində yazıçıların iştirakı dil məsələsinin təkcə mədəni deyil, həm də dövlətçilik ideyasının əsas dayaqlarından biri olduğunu göstərmişdir.

## Ədəbiyyat

1. Mehmetzade M.B. Sovyet Azerbaycanda Türk dilinin ruslaşdırma ve imha siyaseti hakkında– Berlin: Kurtuluş, – 1936, № 20, – s. 56.
2. İsrafilov H.H. Sənətkarın şəxsiyyəti // Azərbaycan. – 1980. № 3, –s. 195-199.
3. Xudiyev N.M. Heydər Əliyev və Azərbaycan dili – Bakı: Elm və təhsil, – 2014. – 542 s.
4. Azərbaycan Yazıçılar İttifaqının plenumu //1937-ci il, 11 mart Azərbaycan Respublikası Dövlət ədəbiyyat və İncənət Arxivi, Fond № 340, siyahı № 1, iş № 4,vərəq-51.
5. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir intellektual mülkiyyətidir. Respublika Prezidenti Heydər Əliyevin Azərbaycan Yazıçılarının X Qurultayında nitqi // Azərbaycan. – 1997, 5 noyabr. – s. 1-3.
6. Həsənova A.M. XX əsrdə Azərbaycan Yazıçılar Birliyindəki ədəbi müzakirələrin yaradıcılıq prosesləri və ədib talelərinə təsiri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2023, 145 s.
7. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.

**Rəyçi: fil.ü. f.d. Cəfərova Xəyalə Eldar qızı**